Uluslararası Beşeri Bilimler ve Sanat Dergisi
International Journal of Humanities and Art
http://www.trkdergisi.com
Araştırma Makalesi / Research Article

e-ISSN:2757-6388
trk dergisi
2025
6(1):35/49

**Geliş Tarihi / Receive** : 29.05.2025
**Kabul Tarihi / Accepted :** 19.06.2025

# Hayat Bilgisi Derslerinde İlkokul Öğrencilerinin Yaratıcı Yeteneklerinin Geliştirilmesinin Yenilikçi Temelleri

# "Həyat Bilgisi" Dərslərində İbtidai Sinif Şagirdlərinin Yaradıcı Qabiliyyətlərinin Formalaşdırılmasının İnnovativ Əsasları

# İnnovative Foundations For The Formation Of Creative Abilities Of Primary School Students İn "Life Skills" Lessons

**F. Cabbar qızı Cəlil,**
**Prof. Dr., Pedaqogika və psixologiya kafedrasının müdiri**
**e-mail: calil.farah72@mail.ru,**
**Orcid ID: 0000-0001-6894-4401**
**Ülviyyə Məhəmmədəli qızı Verdiyeva**
**Dr., Mingəçevir Dövlət Universiteti**
**pedaqoq1984@mail.ru**
**ORCİD İD 0000-0003-2617-7456**

**Atıf/Cite as:** Verdiyeva, Ülviyyə, & Prof. F. Cabbar qızı Cəlil. "Həyat bilgisi" dərslərində ibtidai sinif şagirdlərinin yaradıcı qabiliyyətlərinin formalaşdırılmasının innovativ əsasları. *Trk Dergisi*. Geliş tarihi gönderen https://www.trkdergisi.com/index.php/trk/article/view/223

**İntihal /Plagiarism:** Bu makale, en az iki hakem tarafından ve bir intihal programında incelenmiş intihal içermediği teyit edilmiştir. / This article has been reviewed by at least two reviewers and in a plagiarism program and has been confirmed to be free of plagiarism.

# Hayat Bilgisi Derslerinde İlkokul Öğrencilerinin Yaratıcı Yeteneklerinin Geliştirilmesinin Yenilikçi Temelleri


## Öz

Makalede, ortaöğretim kurumlarında Hayat Bilgisi derslerinde ilkokul öğrencilerinin yaratıcı yeteneklerinin oluşumuna yönelik yapılan çalışmaların yenilikçi temelleri ele alınmaktadır. Hayat Bilgisi dersinde ilkokul öğrencilerinin yaratıcı yeteneklerinin oluşturulabilmesi için, başta bilgi ve iletişim teknolojileri olmak üzere bir dizi yenilikçi araçtan yararlanılarak öğrencilerin yaratıcı yeteneklerinin oluşturulmasına yönelik amaçlı bir yaklaşımın benimsenmesi gerektiği gösterilmektedir. Bu durumda meta-yeterlilik çalışma sisteminin kullanılması gerekmektedir. Eleştirel düşünme, pedagojik yenilikler, mantıksal düşünme ve yaratıcı düşünme temelli yeterliliklerin kullanılmasının gerekliliği de vurgulanıyor.

İlkokulda Hayat Bilgisi dersi öğretimi sırasında öğrenciler yaşam olaylarıyla daha fazla tanışmakta, yaşamsal bilgiler edinmekte ve birtakım yaratıcı beceriler kazanmaktadırlar. Bu amaçla, Hayat Bilgisi dersi veren ilkokul öğretmenlerinin, sorunun yenilikçi temellerini doğru bir şekilde tespit etmek için amaçlı bir yaklaşım sergilemeleri gerekmektedir. Çünkü ilkokul öğrencilerinin yaratıcı yeteneklerinin ortaya çıkarılması, geliştirilmesi ve şekillendirilmesi çalışmalarının Hayat Bilgisi derslerinde yenilikçi temellerin gücüyle başarıyla uygulanması mümkündür. Bu amaçla ilkokul öğretmenlerinin kendi yeterliliklerini geliştirmeye öncelik vermeleri gerekmektedir.

İlkokul öğretmenlerinin Hayat Bilgisi öğretimi sürecinde öğrencilerin yaratıcı yeteneklerinin oluşmasında örnek iletişim, bilgisayar teknolojilerini etkili kullanma, müzik eserlerini dinlerken pedagojik yeniliklerin gücünden yararlanma, muğam icrasının sunumunda doğru yaklaşım, Hayat Bilgisi'nin diğer derslerle bütünleştirilmesi, sınıfın ve öğrencilerin sosyalleştirilmesi gibi yeterliliklerden yararlanmaları büyük önem taşımaktadır. Bu nedenle Azerbaycan'da uygulanan eğitim reformlarına ilişkin direktif belgelerinde, öğrencilerin yaratıcı yeteneklerinin oluşturulması amacıyla, öğretmenlerin Yaşam Becerileri öğretimi sürecinde ve diğer derslerin öğretiminde yeterlilikleri esas almalarının gerekli olduğu düşünülmektedir. Hayat bilgisi derslerinde öğrencilerin yaratıcı yeteneklerinin ortaya çıkarılması, geliştirilmesi ve şekillendirilmesi, onların bilimsel dünya görüşlerini ve kişilik yönelim düzeylerini artırır.


**Anahtar Kelimeler:** Yaşam becerileri, İlkokul notları, Yaratıcı yetenekler, Yenilikçi temeller, Yeterlilikler, Yaratıcı yaklaşımlar, Yaratıcı düşünme

# “Həyat Bilgisi” Dərslərində İbtidai Sinif Şagirdlərinin Yaradıcı Qabiliyyətlərinin Formalaşdırılmasının İnnovativ Əsasları


## Xülasə

Məqalədə Həyat Elmləri kurslarında ibtidai sinif şagirdlərinin yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması üzrə orta təhsil müəssisələrində aparılan tədqiqatların innovativ əsaslarından bəhs edilir. Göstərilir ki, Həyat Elmləri kurslarında ibtidai sinif şagirdlərinin yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması üçün bir sıra innovativ vasitələrdən, ilk növbədə, informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə şagirdlərin yaradıcılıq qabiliyyətlərinin yaradılmasına məqsədyönlü yanaşma aparılmalıdır. Bu zaman meta-səriştənin öyrənilməsi sistemindən istifadə tələb olunur. Tənqidi düşüncə, pedaqoji innovasiyalar, məntiqi təfəkkür və yaradıcı təfəkkürə əsaslanan kompetensiyalardan istifadənin zəruriliyi də vurğulanır.

İbtidai siniflərdə Həyat Elmləri kursunun tədrisi zamanı şagirdlər həyat hadisələri ilə daha yaxından tanış olur, həyati vacib məlumatlar əldə edir və müəyyən yaradıcılıq bacarıqları əldə edirlər. Bu məqsədlə Həyat Elmləri fənnini tədris edən ibtidai sinif müəllimləri problemin innovativ əsaslarını düzgün müəyyən etmək üçün məqsədyönlü yanaşma nümayiş etdirməlidirlər. Çünki Həyat Elmləri kurslarında ibtidai sinif şagirdlərinin yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılması, inkişaf etdirilməsi və formalaşdırılması üzrə tədqiqatları innovativ əsasların gücü ilə uğurla həyata keçirmək mümkündür. Bu məqsədlə ibtidai sinif müəllimləri öz səriştələrini inkişaf etdirməyə üstünlük verməlidirlər.

Şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi üçün ibtidai sinif müəllimləri üçün nümunəvi ünsiyyət qurmaq, kompüter texnologiyalarından səmərəli istifadə etmək, musiqi əsərlərini dinləyərkən pedaqoji yeniliklərin gücündən istifadə etmək, muğam ifaçılığının təqdimatında düzgün yanaşma, “Həyat elmləri” fənninin digər kurslarla inteqrasiyası, sinif və şagirdlərin sosiallaşması kimi səriştələrdən bəhrələnməsi böyük əhəmiyyət kəsb edir. Odur ki, Azərbaycanda həyata keçirilən təhsil islahatları ilə bağlı direktiv sənədlərdə şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi üçün Həyat bilgilərinin tədrisi prosesində və digər kursların tədrisində müəllimlərin kompetensiyaların əsas götürülməsi zəruri hesab olunur. Həyat Elmləri kurslarında tələbələrin yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılması, inkişaf etdirilməsi və formalaşdırılması onların elmi dünyagörüşünü və şəxsiyyət yönümlülük səviyyəsini artırır.


**Açar sözlər:** Həyat bacarıqları, İbtidai siniflər, Yaradıcı qabiliyyətlər, İnnovativ əsaslar, Bacarıqlar, Yaradıcı yanaşmalar, Yaradıcı düşüncə

# Innovative foundations for the formation of creative abilities of primary school students in "Life skills" lessons


## Abstract

The article discusses the innovative foundations of the work on the formation of creative abilities of primary school students in Life Science lessons of secondary schools. It is shown that in order to form the creative abilities of primary school students in Life Science lessons, it is necessary to take a purposeful approach to the formation of students' creative abilities by using a number of innovative tools, including all types of information and communication technologies. In this case, it is necessary to use the work system on meta-competences. The necessity of using competencies based on critical thinking, pedagogical innovations, logical thinking, and creative thinking is also noted.

In the process of teaching Life Science in primary schools, students become more familiar with life events, gain vital knowledge, and also acquire a number of creative abilities. For this, primary school teachers teaching Life Science should take a purposeful approach to correctly identifying the innovative foundations of the problem. Because it is possible to successfully implement the work of revealing, developing and forming the creative abilities of primary school students in Life Science lessons with the power of innovative foundations. For this, primary school teachers should first of all prefer to rely on their own competencies.

Considering that primary school teachers, during the formation of students' creative abilities in the process of teaching Life Science, it is of great importance for class teachers to establish exemplary communication, effectively use computer technologies, use the power of pedagogical innovations when listening to musical works, take a correct approach to the presentation of mugham performance, integrate Life Science with other subjects, and use such competencies as socialization of the class and students. Therefore, in the directive documents on educational reforms implemented in Azerbaijan, it is considered necessary for teachers to rely on competencies to form students' creative abilities in the process of teaching Life Science, as well as in the teaching of other subjects. Revealing, developing, and shaping students' creative abilities in life science lessons increases their scientific worldviews and levels of personality orientation.


**Keywords:** Life knowledge, Primary classes, Creative abilities, Innovative principles, Competencies, Creative approaches, Creative thinking

## Giriş

Təliminin tələblərinə uyğun olaraq şagirdlərin yaradıcı qabiliyyətlərinin formalaşdırılmasından ötrü müəllimlərin bir sıra kompetensiyalara əsaslanmaları zəruri sayılır. Onlar aşağıdakılardan ibarətdir:

-Həyat bilgisi dərslərində ünsiyyət kompetensiyaları;

-Həyat bilgisi təlimində kompüter texnologiyalarından istifadə kompetensiyası;

-Həyat bilgisi dəslərində müstəqil öyrənmə kompetensiyaları;

-Həyat bilgisinin digər fənlərlə inteqrasiyasını təşkil edən kompetensiyalar;

-Şagirdlərin sosiallaşdırılması ilə bağlı olan kompetensiyalar (HÜSEYNOVA, 2008: 84).

Kompetensiyalarla bağlı metodik ədəbiyyatda və rəsmi sənədlərdə göstərildiyi kimi əsas kompetensiyalarla yanaşı metokompetensiyalar da təsnif olunur. Gülər Hüseynovanın adı çəkilən kitabında həmin kompetensiyalar tənqidi təfəkkür, yaradıcı yanaşma, təşəbbüskarlıq, problemlərin həlli, riskin qiymətləndirilməsi, hislərin konstruktiv idarə edilməsi kimi təsnif olunur. Fikrimizcə, metokompetensiyalar aşağıdakı şəkildə müəyyənləşdirilib təsnif olunmalıdır:

-Tənqidi təfəkkürə əsaslanan kompetensiyalar

-Pedaqoji innovasiyalara əsaslanan kompetensiyalar;

-Məntiqi təfəkkürə əsaslanan kompetensiyalar;

-Yaradıcı təfəkkürə əsaslanan kompetensiyalar;

-Yaradıcı qabiliyyətlərə əsaslanan kompetensiyalar;

-Hislərin konstruktiv idarə edilməsi ilə bağlı konpetensiyalar

Əlbəttə ki, bu kompetensiyaların sırasında təşəbbüskarlıq, problemli situasiyalarla bağlı kompetensiyalar, riskin reallaşdırılması ilə bağlı kompetensiyalar, riskin qiymətləndirilməsi ilə bağlı kompetensiyalar və digər kompetensiyalar təsnif oluna bilər.

Fikrimizcə, tənqidi təfəkkürə əsaslanan kompetensiyaları Həyat bilgisi dərslərində hər hansı mövzunun tədrisi prosesində tətbiq etmək olar. Çünki belə kompetensiyalar şagirdlərin yaradıcı qabiliyyətlərinin aşkara çıxarılıb inkişaf etdirilməsinə və formalaşdırılmasına öz dinamik təsirini göstərər bilər. Məsələn, III sinifdə “Təhlükəli təbiət hadisələri” mövzusunun tədrisi üçün dərslikdə verilən şəkillərə ciddi tənqidi münasibət bəsləmək lazım gəlir. Dərsliyin 42-ci səhifəsində zəlzələ ilə bağlı verilən şəklin izahlı illustrasiyalar formasında verilməməsi tənqid olunmalıdır. Bu zaman

şagirdlərin zəlzələlərə münasibətini öyrənmək lazım gəlir. Çünki əvvəlki siniflərdə zəlzələ ilə bağlı dərsliklərdə verilən məlumatlardan bəhrələnən III sinif şagirdləri valideynlərinin və müəllimlərinin informasiyaları əsasında da zəlzələ haqqında kifayət qədər biliklər əldə etmişlər. Şagirdlərin şəklə münasibətini öyrənmək üçün onlara meydan vermək və öz tənqidi fikirlərini irəli sürməklə imkanları irəli sürmək lazım gəlir. Belə olan tərzdə şagirdlərin təhlil olunan məsələyə yaradıcı şəkildə yanaşmaları onlarda yaradıcı qabiliyyətlərinin aşkara çıxarılmasına təsir göstərir. Yaxud "Sürüşmə", "Toz fırtınası, vulkan, burulğan, Sunami, Meşə yanağını, Meteorit düşməsi" adlandırılan şəkillər haqqında şagirdlərin mülahizə söyləməsi, mühakimə yürütmələri, məsləyə yaradıcı şəkildə yanaşmaları onların tənqidi təfəkkürünü inkişaf etdirmiş olur (MEHDİYEVA, BAYRAMOVA, 2014: 89). Belə innovativ əsaslar üzrə təşkil olunan fəal dərsləri metokompetensiyaları üzrə də təşkil etmək olar. Hansı ki, bu kompetensiyaların hər biri haqqında pedaqoji innovasiyaların köməyi ilə məlumatların verilməsi çox faydalıdır.

İnnovasiya fəaliyyəti iqtisadi inkişafı və rəqabətliliyi təmin etmək üçün yeni ideyaların, elmi biliklərin, texnologiya və məhsulların müxtəlif istehsal və idarəetmə sahələrinə tətbiq edilməsidir. "İnnovasiya" termini latın dilində "innovato" sözündən olub, "yenilənmə" və "yaxşılaşma" deməkdir.

İnsan fəaliyyətinin bütün sahələrində olduğu kimi təhsildə də innovasiyaların mühüm rolu vardır. Təhsildə innovasiya dedikdə müxtəlif yeniliklərin təlim-tərbiyəsinin məqsəd, məzmun, metod və formalarına tətbiqi, təhsilin iqtisadiyyatı, təşkili və idarə edilməsində pedaqoq və təhsilalanın müştərək fəaliyyətlərinin yeni biliklər əsasında təşkili tutulur.

## 1.Pedaqoji innovasiyalarla təşkil olunan təlim mühitinin səmərəsi.

Pedaqoji innovasiyalarla, yəni yeniliklərlə təşkil olunan təlim mühiti daha səmərəli və əlverişlidir. Son illərdə aparılan islahatlar nəticəsində təlimin təşkilində və idarə olunmasında müxtəlif yeni üsul və formalardan, təlim texnologiyalarından, şagirdlərin maraq və tələbatına uyğun resurslardan istifadə olunur ki, bunlar pedaqoji innovasiyalar sırasına daxildir (KƏRİMOVA, MEHDİYEVA, 2013: 47). Belə pedaqoji innovasiyaların köməyi ilə şagirdlərdə həm tənqidi təfəkkürü, həm də yaradıcı təfəkkürü inkişaf etdirmək olar. Hər iki halda şagirdlərin yaradıcı qabiliyyətlərinin formalaşdırılması üçün mühüm şərait yaranmış olur.

1.1.Şagirdlərin yaradıcı qabiliyyətlərinin formalaşdırılması yolları.

Məntiqi təfəkkür – nəticə çıxarma, əlaqə yaratma, yaxud da xüsusi situasiyanı izah etmək üçün ümumi ideyaları tətbiq etmək bacarığı,

informasiyanı hər bir hissəsi anlaşıqlı və yaxud əlaqələrin dəqiq qalmas şərti ilə tərkib hissələrinə ayıra bilmə bacarığının formalaşması ilə inkişaf edir.

Məntiqi təfəkkürün inkişafı üçün nəzərdə tutulan fəaliyyətlərə aşağıdakıları daxil etmək olar:

-Təsvir etmək, müqayisə etmək, oxşar və fərqli cəhətləri tapmaq, təsnif etmək, əlaqələri tapmaq, dəyişdirmək, hesablamaq, sadələşdirmək, müəyyən etmək, əlaqəni aşkar etmək, şərh etmək, mahiyyətini izah etmək, müəyyən etmək, izahat vermək, təhlil etmək (BAYRAMOV, ƏLİZADƏ, 2002: 131). Həyat bilgisinin tədrisi prosesində mövzuların öyrədilməsi zamanı xüsusi situasiyaları izah edərkən şagirdlərin yaradıcı qabiliyyətlərinin formalaşdırılmasına kömək etmək mümkündür. Belə prosesdə yaradıcı təfəkkürün inkişafına da şərait yaranır. Yaranmış şəraitdən istifadə edən ibtidai sinif müəllimləri öz kompetensiya imkanlarından innovativ əsaslar üzrə istifadə etməklə şagirdlərdə yaradıcı təfəkkürü inkişaf etdirə bilərlər.

Yaradıcı təfəkkür – mövcud olanları birləşdirmə, planlaşdırma, proqnozlaşdırma, yeni nümunə və struktur yaratmaq üçün hissə və bölgülərlə işləmək bacarığı yaradıcı təfəkkürü inkişaf etdirir.

## 1.2.Yaradıcı təfəkkürün inkişafı üçün nəzərdə tutulan fəaliyyətlər.

-Hekayə, nağıl, situasiya uydurmaq, sxem model qrafik kitab tərtib etmək, proqnoz vermək, ixtira etmək, yaratmaq, yeni tətbiq üsulunu tapmaq, dəyişikliklər etmək, quraşdırmaq, yeni şəraitə uyğun hala gətirmək, mübaliğə etmək (şişirtmə, artırma, böyütmə), simvol şəklində təsvit etmək, proqnozlaşdırmaq, icad etmək (İBRAHİMOVA, MEHDİYEV, 2014: 65). Bunlarla yanaşı, Həyat bilgisi fənninin tədrisi prosesində materiklər, adalar, okeanlar, dənizlər haqqında mühakimələr yürütmək, təbii hadisələr və onların yaratdığı fəalkətlər, canlılar, onların təbiətdə mövqeyi ilə bağlı fikir söyləmək, müstəqil Azərbaycan Respublikasının tarixi və müasir inkişaf ilə bağlı müqayisəli mühakimələr yürütmək, milli-mənəvi dəyərlərimizin ictimai-iqtisadi-siyasi və tərbiyəvi əhəmiyyəti ilə bağlı ESSE-lər qurmaq və bu kimi kompetensiyalara əsaslanan işlərin innovativ vasitələrin köməyilə təqdim edilməsi şagirdlərin yaradıcı təfəkkürün inkişafı ilə bir başa bağlıdır. Məhz ona görə də Həyat bilgisi dərslərində müvafiq mövzuların öyrədilməsi zamanı aparılan təhlillər prosesində şagirdlərin yaradıcı təfəkkürünün inkişaf etdirilməsi onların yaradıcı qabiliyyətlərinin aşkara çıxarılmasına təkan vermiş olur. Ona görə də sinif müəllimləri deyilənlərdən bəhrələnməklə şagirdlərin yaradıcı qabiliyyətlərinin formalaşdırılmasına cəhd göstərməlidirlər.

Əlbəttə, bədii yaradıcılıq sahələrinin yenidən qurulması qısa müddətə başa gəlmir. Bu sahədə əsas vəzifə, ümumiyyətlə, bədii yaradıcılığın vəzifələrinin işgüzar, prinsipial şəkildə təhlili, onun güclü və zəif cəhətlərinin, faydalı və

faydasız, aktual və qeyri-aktual xüsusiyyətlərinin araşdırılması, müasir şəraitdə onun mahiyyətinin və xarakter cəhətlərinin, eləcə də inkişaf istiqamətlərinin və perspektivlərinin müəyyən edilməsidir. "Unutmaq vacibdir ki, qədim və zəngin tarixə malik olan xalqımız elmə, mədəniyyətə, incəsənətə və habelə bədii xalq yaradıcılığına yiyələnmək üçün min illərlə təkamül yolu keçmişdir. Bu dövr ərzində ulularımızın bədii təfəkkürü, xalq yaradıcılığı qaynaqları mürəkkəb proseslərlə qarşılaşçsa da zamanın amansız sınaqlarına təmkinlə sinə gərərək yiyələndiyi mənəvi dəyərləri taleyin ümidinə atmamış, cəmiyyət həyatının bütün inkişaf mərhələlərində baş vermiş ictyimai-siyasi hadisələrin fövqündə dayanmışdır" (ASE, 1978: 13-14).

## 1.3.Həyat bilgisi dərslərində təhlil edilən mövzuların şagirdlərin təfəkkürünün inkişaf etdirilməsində rolu.

Həyat bilgisi dərslərində şagirdlərin bədii təfəkkürünün inkişaf etdirilməsi onların təxəyyül imkanlarının genişlənməsinə səbəb olur. Ona görə də innovativ vasitələrdən istifadə etməklə kiçikyaşlı məktəblilərdə təxəyyülün inkişafına diqqət yetirmək vacib sayılır. Çünki Həyat bilgisi dərslərində təhlil edilən mövzuların əksəriyyəti təbiət hadisələrinə, onların bədii təhlilinə, həyat hadisələrinin bədii yaradıcılıq nümunələri vasitəsilə təsvir edilməsinə həsr edildiyi üçün şagirdlərin təxəyyül imkanlarının genişlənməsinə mühüm şərait yaranmış olur.

## 2.Həyat bilgisi dərslərində innovativ vasitələrin tətbiqi şagirdlərdə təxəyyülü formalaşdıran vasitə kimi.

Həyat bilgisi dərslərində kompüter texnologiyalarından, planşetlərdən, internet resurslarından və bu kimi digər innovativ vasitələrin gücündən istifadə edərkən elə bədii təsvirlərdən, peyzaj komponentlərindən istifadə etmək lazımdır ki, onlar şagirdlərin təxəyyülündə yeni bədii obrazların yaranmasına təsir göstərə bilsin.

Təxəyyüldə yeni bədii obrazların meydana gəlməsi yaxınlığa, təzadlığa və oxşarlığa görə assosiasiya qanunu üzrə baş verir. Məsələn, real gerçəklikdə məkan və zaman şəraiti ilə bir-birindən ayrılmış iki təsəvvürün birləşdirilməsi; bir obrazın cizgiləri ilə digər obrazların tamamlanması; predmetlərin xassələrinin gücləndirilməsi və yaxud zəiflədilməsi; çox zaman əksliyə gətirib çıxaran təzadlı dəyişikliklər də bu qəbildəndir. Bədii təxəyyüldə intuisiyanın da əhəmiyyətli rolu vardır. A.M.Aslanovun qeyd etdiyi kimi: "Bədii obrazın fərdiliyi və universallığı insanın estetik hisslərinin, bədii təxəyyül və dünyagörüşünün formalaşmasında mühüm rol oynayır (MURADZADƏ, 2007: 16). Məhz belə yanaşmalar şəraitində şagirdlərin yaradıcı qabiliyyətlərinin aşkara çıxarılmasına, inkişaf etdirilərək formalaşdırılmasına şərait yaranmış olur. Yəni şagirdlərin təxəyyülündə yeni obrazların canlanması onların təbiət hadisələrini rəsm etmək,

peyzajlara dair şəkillər çəkmək, təbiət hadisələrinə dair şeirlər söyləmək, mahnılar oxumaq kimi bədii yaradıcı qabiliyyətlərini formalaşdırmış olur.

## 2.1.Bədii təxəyyül – bədii obrazlar yaratmaq qabiliyyəti kimi.

Bəllidir ki, hər hansı bir sənət nümunəsini, müəyyən bir obrazı yaradarkən bədii təxəyyülsüz keçinmək qeyri-mümkündür. Bədii təxəyyül – keçmiş duyğuların, qavrayışların, təsəvvürlərin, hisslərin, təəssüratların xəyalda, xatirələrdə bərpa edilməsi və şüurlu surətdə yenidən işlənib hazırlanması əsasında bədii obrazlar yaratmaq bacarığıdır, həmin obrazlar yaratmaq prosesi və onun nəticəsidir. Təxəyyül insanın hər cür yaradıcılıq fəaliyyətinin zəruri ünsürüdür. Çünki insan öz əməyinin nəticəsini qabaqcadan təsəvvüründə canlandırmalıdır. Geniş ümumiləşdirmə və tipikləşdirmə prosesindən ibarət olan sənətkar təxəyyülü yaradıclıq fəaliyyətinin bütün mərhələləri üçün: gerçəkliyin dərk olunması, qayə, ayrıca bədii obraz və bütünlükdə incəsənət əsəri yaradarkən material üzərində işləmək və s. kimi mərhələlər üçün səciyyəvidir. Təxəyyül həmişə qarşıya qoyulmuş məqsədlə, üzərində sənərkarın işlədiyi materilla, sənətkarın şəxsi və ictimai təcrübəsi ilə bağlıdır. Dərk etməyin dərinliyi, qabaqcıl dünyagörüşü, humanizm, zəngin şəxsi təcrübə, həyat faktlarını qavramağın emosionallığı bədii təxəyyülün inkişafına kömək edir. Bədii təxəyyül isə materialın öyrənilməsi, seçilməsi prosesini, bir növ, başa çatdırır və onu canlı, müsbət və yaxud mənfi ictimai tipik xarakter halında formalaşdırır. "Təxəyyül bədii əsərin qavranılması, fikri məsələnin həll edilməsi, fəaliyyətin planlaşdırılması prosesində bilavasitə iştirak edir və onların məhsuldarlığını şərtləndirən əsas amillərdən birinə çevrilir" (HÜSEYNZADƏ, ƏZİZOVA, ƏLİYEV, VERDİYEVA, 2021: 272).

## Həyat bilgisi dərslərində şagirdlərin yaradıcı qabiliyyətlərinin formalaşdırılmasında fəaliyyətin rolu.

Həyat bilgisi dərslərində ibtidai sinif müəllimlərinin şagirdlərin yaradıcı qabiliyyətlərinin formalaşdırılmasına münasibət bildirmək yerinə düşərdi. İbtidai sinif müəllimlərinin şagirdlərin yaradıcı qabiliyyətlərinin formalaşdırılması məsələsini daha dəqiq aydınlaşdırmaq üçün yaradıcı qabiliyyətlər anlayışının da şərh olunmasına ehtiyac duyulur. Yaradıcı qabiliyyətlər sözünün iki tərəfi vardır. Birinci tərəfdəki "yaradıcı" sözü bir anlayış olaraq "yaratmaq" sözündən əmələ gəlmişdir. Yaratmaq sözü insanın fəaliyyəti dövründə əldə etdiyi nailiyyətlərinin məcmusu sayılır. Çünki hər bir insan müvafiq fəaliyyət istiqamət üzrə nailiyyətlər əldə edir. Hansı ki, onlar bu nailiyyətləri əldə etmək üçün əmək sərf edirlər. Fəaliyyət prosesində sərf olunan əməyin növləri və istiqamətləri müxtəlif olur.

Fəaliyyət – insanın ətraf aləmə fəal münasibətinin səciyyəvi forması və məzmunu aləmi məqsədəuyğun dəyişdirməkdən ibarətdir. Hər bir fəaliyyətdə məqsəd, vasitə, nəticə və prosesin özü ehtiva olunmuşdur. Fəaliyyət ictimai tərəqqinin real hərəkətverici qüvvəsi və cəmiyyətin

mövcudluğunun şərtidir. Bununla yanaşı, mədəniyyət tarixi göstərir ki, fəaliyyət insan mövcudluğunun tam əsası deyil. Əgər fəaliyyətin əsası şüurlu məqsəddirsə, məqsədin əsası fəaliyyətdən kənarda, insanı motivlərdə, ideallarda, sərvətlərdədir (ASE, 1978: 592).

## 2.3. Şagirdlərin yaradıcı fəaliyyətinin formalaşmasında həyat bilgisi dərslərinin əhəmiyyəti

Şagirdlərin yaradıcı fəaliyyəti onların əsas məqsədindən irəli gələn yaradıcı imkanlarıdır. Yəni təhsil prosesində şagirdlərin yaradıcı fəaliyyəti onların dərsə münasibətindən, tapşırıqları yerinə yetirə bilmək imkanlarından, davranışla əlaqədar olan mənəvi keyfiyyətləri qazanmağa səy göstərməkdən ibarətdir. Şagirdlərin mənəvi fəaliyyəti, maddi fəaliyyəti, istehsalat fəaliyyəti, əmək fəaliyyəti, işgüzarlıq fəaliyyəti ilə yanaşı, yaradıcılıq fəaliyyəti də mövcuddur. Deməli, yaradıcı sözündən əmələ gələn yaradıcılıq sözü də şagirdləri müvafiq nailiyyətlərə sövq edən fəaliyyət prosesidir. Bu mənada yaradıcı sözü bir anlayış olaraq yaradıcılıq anlayışını da özündə ehtiva edir. Yaradıcılıq sözü də yaratmaq söz kökündən əmələ gəlmişdir. Yaradıcılıq şagirdlərin hər hansı fəaliyyətinin yeni fərqli və bütövlükdə götürdükdə orjinal bir sahəsi kimi dəyərləndirilir.

“Yaradıcılıq” sözü yaratmaq kökündən əmələ gəlmiş hər hansı fəaliyyətin, yəni insan fəaliyyətinin yeni fərqli, bütövlükdə götürüldükdə orijinal bir sahəsidir.

Yaradıcılıq həmişə ona ciddi təsir göstərən konkret sosial-tarixi şəraitdə və ətraf mühitlə, yaradılmış mədəniyyət formaları ilə sıx əlaqədə baş verir. Elmi və bədii yaradıcılığın inkişafının labud şərtlərindən biri azad tənqid, yaradıcılıq mübahisələri, rəy mübadiləsi və mübarizəsidir (SADIQOV, 2012: 79).

## 3.Həyat bilgisi dərslərində ibtidai sinif müəllimlərinin kompetensiya imkanlarından istifadə etməklə şagirdlərin yaradıcı qabiliyyətlərinin aşkara çıxarılması.

Həyat bilgisi dərslərində ibtidai sinif müəllimlərinin kompetensiya imkanlarından istifadə etməklə şagirdlərin yaradıcı qabiliyyətlərinin aşkara çıxarılması və innovativ əsaslar üzrə inkişaf etdirilməsi onların məqsədyönlü fəaliyyətinin yeni və fəqli olan göstəricisidir. Hansı ki, belə innovativ yanaşma prosesində yeni-yeni yaradıcı fəaliyyət istiqamətində şagirdlərin qabiliyyətlərinin innovativ əsaslar üzrə aşkara çıxarılması üçün imkanlar yaranır. Həyat bilgisi dərslərində bütün mövzular üzrə həyat hadisələrinin təbii görüntüsünü kompüter texnologiyaları, planşetlər, trafaretlər, informasiya və kommunikasiya texnologiyaları vasitəsilə şagirdlərin əyani olaraq diqqətinə çatdırmaq çox faydalıdır. Belə innovativ yanaşmalar isə şagirdlərə təqdim olunan həyata hadisələrinə yaradıcı

şəkildə yanaşmağa imkan verir. Belə yaradıcı yanaşmalar isə onların yaradıcı qabiliyyətlərini inkişaf etdirərək formalaşdırır. Şagirdlərin qazandıqları yaradıcı qabiliyyətlər isə onların müəyyən müddət ərzində nailiyyətlər qazanmalarına istiqamət vermiş olur. Deməli əgər şagirdlərin yaradıcı qabiliyyətləri deyəndə onların qazandıqları nailiyyətlərinin məzmunu nəzərdə tutulursa həmin qabiliyyətlərin yaranma mənbəyi ilə bağlı da fikirlər söyləmək lazım gəlir. Elmi ədəbiyyatda qabiliyyətlərin genetik imkanlar hesabına yaranması, mühitin təsiri ilə inkişaf etməsi haqqında mübahisəli fikirlər çoxdur.

Yaradıcı qabiliyyətlərin geniş faktorların hesabına meydana gəlməsini elm inkar etmir. Lakin qabiliyyətlərin yaranıb formalaşması işində əhəmiyyət kəsb edən genetik faktorların zəruriliyi haqqında qəti hökm vermək düzgün sayıla bilməz. Doğrudur, dünyanın bu sahədə çalışan alimlərin irsi keyfiyyətləri və genetik normaları heç də inkar etmirlər.

## 3.1.Şəxsiyyətin formalaşmasında, onun yaradıcılıq qabiliyyətlərinin üzə çıxmasında genetik amillərin rolu.

Şəxsiyyətin formalaşmasında, onun yaradıcılıq qabiliyyətlərinin üzə çıxmasında genetik amillərə üstünlük verənlər daha çoxdur. Lakin bu o demək deyil ki, yaradıcı qabiliyyətlər yalnız genetik amillər hesabına üzə çıxır. Unutmaq olmaz ki, yaradıcı şəxsiyyətlər çox zaman yaşadıqları mühitdə meydana gəlir və formalaşırlar. Məsələn, Şah İsmayıl Xətainin 25 ulu babası müqəddəs şeyxlər kimi məşhur olmuşlar. Onların müqəddəs məbədləri indi də Ərdəbil qəbiristanlığında xalqın ziyarətgahına çevrilmişdir. Lakin bu nəsildə yeganə sərkərdə Xətaidir. Onlardan heç birində Xətai kimi şairlik istedadı olmamışdır. Lakin Xətai, dövrünün ən görkəmli şairlərindən olmuşdur və bu gün də, gələcək nəsil üçün örnək hesab edilir (SEYİDOV, HƏMİZƏYEV, 2007: 110).

Yaxud Heydər Əlirza oğlu Əliyevin ailə üzvləri, o cümlədən bacı-qardaşlarının hamısı ali təhsil almış və elm adamları kimi yüksək zirvələr fəth etmişlər. Onların üçü akademik, biri kimyaçı-professor, biri bioloq-alim, biri isə arxitektor-rəssam olmuşdur. Lakin onların heç birisi Heydər Əliyev kimi dövlət idarəçiliyi sahəsində yüksək qabiliyyətlərə malik olmamışlar.

## 3.2.Həyat bilgisi dərslərində qabiliyyətlər şagird fəaliyyətinin müvəffəqiyyətli icrasının şərti kimi.

Pedaqoji prosesdə də belə hallarla tez-tez rastlaşmaq olur. İstər təlim prosesində, istərsə dərsdənkənar tədbirlərdə uşaqlara verilən tapşırıqların icrasında ciddi fərqlər özünü göstərir. Yəni eyni tapşırığı şagirdlərin biri yüksək səviyyədə, biri orta səviyyədə yerinə yetirdikləri halda, digərləri həmin tapşırıqları yerinə yetirməkdə çətinlik çəkirlər. Tutaq ki, eyni yaşda olan və eyni sinifdə oxuyan uşaqlara eyni bir işin icrası tapşırılır. Onlar üçün tam eyni olan iş şəraiti yaradılır. Buna baxmayaraq onlardan bəziləri həmin

tapşırığı çətinlik çəkmədən yerinə yetirdiyi halda, başqaları çətinlik çəkir. Onların həmin işi yerinə yetirmələrindəki bu cür fərqi haqlı olaraq uşaqların qabiliyyətləri ilə izah edirlər. Təcrübə göstərir ki, müvafiq qabiliyyətlərə malik olan insanlar bu sahədə zəruri bilik, bacarıq və vərdişlərə asanlıqla yiyələnir və əldə etdikləri nəticələrin səmərəliliyinə görə fərqlənirlər. Məhz buna görə də insanda müvafiq qabiliyyətlərin olması onun həyat və fəaliyyətində mühüm rol oynayır, onun daha çox hansı fəaliyyət sahəsi üçün yararlı olduğunu söyləməyə imkan verir. Bu cəhəti nəzərə alaraq qabiliyyətə belə tərif vermək mümkündür: insanın hər hansı bir və ya bir neçə fəaliyyət sahəsi üçün daha çox yararlı olduğunu göstərən fərdi psixi xassəyə qabiliyyət deyilir. (SEYİDOV, 2007: 415-416). Qabiliyyətlər fəaliyyətin müvəffəqiyyətli icrasının şərti kimi özünü biruzə verir. Yəni fəaliyyət prosesində qabiliyyətlərin imkanlar kimi özünü göstərməsi artıq təsdiq edilmişdir. Psixoloqlar sübüt etmişlər ki, qabiliyyətlər imkandır. Hansı ki, müvafiq iş üçün zəruri sayılan ustalıq səviyyəsi gerçək şəkildə özünü göstərəndə qabiliyyət imkana çevrilir. Məsələn, kiçikyaşlı məktəblidə özünü göstərən musiqi qabiliyyətləri onun ifaçılıq imkanlarından xəbər verir. Lakin uşaqda aşkara çıxarılmış belə musiqi qabiliyyəti əlbəttə ki, gələcəkdə onun bir musiqiçi olacağını təsdiqləmir. Çünki uşağın musiqiçi olması üçün onun musiqi təhsili görməsi lazım gəlir. Musiqi təhsilinin imkanları isə onun, yəni uşağın bu qabiliyyətinin çiçəklənməsini təmin edir. Əks tədqirdə, yəni musiqi təhsili almadan həmin uşağın bu sahədə, musiqi sahəsinə olan qabiliyyəti imkana çevrilə bilməz. Ona görə Həyat bilgisi dərslərində ibtidai sinif şagirdlərinin yaradıcı qabiliyyətlərinin aşkara çıxarılması, inkişaf etdirilməsi və formalaşdırılması üçün müəllimlərin bu işə öz kompetensiyalarına əsaslanaraq kreativ yanaşmaları lazım gəlir. Bu prosesdə güclü qabiliyyəti olan uşaqlar daha ciddi yaradıcı fəaliyyətə istiqamətləndirilir, zəif qabiliyyətləri olanlar isə bir qədər geri qalmış olurlar.

## 3.3.Həyat bilgisi dərslərində şagirdlərdə ümumi və xüsusi qabiliyyətlərin formalaşdırılması yolları.

Psixoloqlar sübuta yetirmişlər ki, qabiliyyətlər ümumi qabiliyyətlər və xüsusi qabiliyyətlər olmaq üzrə özünü göstərir.

Ümumi qabiliyyətlər dedikdə bir sıra fəaliyyət sahələrində iştirak edən, onların bu və ya digər dərəcədə müvəffəqiyyətli icrası üçün şərt olan qabiliyyətlər nəzərdə tutulur. Ümumi qabiliyyətlər psixi proseslər, birinci növbədə, ali psixi proseslər əsasında formalaşır. Qavrayış, hafizə, təfəkkür, təxəyyül və s. fəaliyyət prosesində funksional cəhətdən inkişaf edərək müvafiq qabiliyyətlərə çevrilir (КОДЖАСПИРОВА, 2010: 421).

Deməli, Həyat bilgisi dərslərində şagirdlərin ümumi və xüsusi qabiliyyətlərə malik olamlarını müəyyənləşdirməyin də əhəmiyyəti böyükdür. Sinif

müəlliminin bu işə kreativ yanaşması nəticəsində uşaqların ümumi və xüsusi qabiliyyətlərə malik olmalarını müəyyənləşdirməyin pedaqoji cəhətdən daha böyük üstünlükləri vardır. Ona görə ki, ümumi qabiliyyətlərə malik olan uşaqlara fərdi yanaşmaq, xüsusi qabiliyyətləri olan uşaqlara fərdi yanaşmadan fərqli olmalıdır.

Xüsusi qabiliyyətlər isə yalnız müəyyən fəaliyyət növünün müvəffəqiyyətli icrası üçün şərt olan qabiliyyətlərə deyilir. Lüğət ehtiyatı və ifadəli dil, söz assosiasiyaların zənginliyi, ədəbi yaradıcılıq, nisbəti, işıqlığı, perspektivi qiymətləndirmə və rəngləri fərqləndirmə həssaslığı; təsviri fəaliyyət; məkan qavrayışı və təsəvvürləri texniki” yaradıcılıq; didaktik qabiliyyətlər və s. isə pedaqoji fəaliyyət üçün xüsusi qabiliyyətlərdir (КЛИМКО, 2020: 77). Ona görə də Həyat bilgisi dərlsərində ümumi qabiliyyətlərə malik olan uşaqlara fərqli yanaşmaqla həmin qabiliyyətlərin inkişaf etdirilərək xüsusi qabiliyyətlər kimi formalaşdırılmasına zəruri ehtiyac duyulur.

Həyati faktlardan məlum olduğu kimi, hər hansı bir fəaliyyətin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün insanda qabiliyyətlərin həm ümumi, həm də xüsusi növlərinin formalaşması zəruridir. Əksər tədqiqatçıların fikrincə ümumi və xüsusi qabiliyyətlər bir-biri ilə ziddiyyət təşkil etmirlər. Onlar birgə mövcud olmaqla bir-birini tamamlayır, fəaliyyətin müvəffəqiyyətini təmin edirlər. Bəzi mütəxəsislərin fikrincə ümumi qabiliyyətlər xüsusi qabiliyyətlərin inkişafı üçün baza rolunu oynayırlar. Xüsusi qabiliyyətlər, alimlərin fikirincə, «ancaq və ancaq bir yolla - ümumi qabiliyyətlərin fəaliyyət prosesində xüsusi qabiliyyətlərə modifikasiya yolu ilə» əmələ gəlir (ИКОННИКОВА, 2020: 41).

## Nəticə

Deməli, Həyat bilgisi dərslərində ibtidai sinif müəllimlərinin kompetensiya imkanlarından istifadə etməklə şagirdlərin ümumi və xüsusi qabiliyyətlərini əvvəlcə müşahidə etmələri, sonra aşkara çıxarmaları, inkişaf etdirərək formalaşdırmaları onların əsas vəzifələrindən sayılır. Hansı ki, bu vəzifələri yerinə yetirməklə onlar kiçikməktəbyaşlı uşaqlara biliklərin əsaslarını öyrətmək, davranışla əlaqədar olan mənəvi keyfiyyətlərini formalaşdırmaq, şəxsiyyətyönümlülük və intelektual səviyyələrini inkişaf etdirmək sahəsində müvəffəqiyyət qazana bilərlər. Çünki belə vəzifələrin müvəffəqiyyətli həlli prosesində şagirdlərin yaradıcı qabiliyyətlərinin formalaşdırılması üçün geniş imkanlar açılır.

## Kaynakça / Reference

AZƏRBAYCAN SOVET ENSİKLOPEDİYASI. (1978). 10 cilddə, IX cild. Bakı: ASE Baş Redaksiyası.

AZƏRBAYCAN SOVET ENSİKLOPEDİYASI. (1981). 10 cilddə, V cild. Bakı: ASE Baş Redaksiyası.

BAYRAMOV, Ə. S., & ƏLİZADƏ, Ə. Ə. (2002). Psixologiya. Bakı: Çinar-Çap.

HÜSEYNOVA, G. A. (2017). Kurikulum təliminə praktiki baxış. Bakı: Hədəf Nəşrləri.

HÜSEYNZADƏ, R. L., ƏZİZOVA, Z. M., ƏLİYEV, Ə. H., & VERDİYEVA, Ü. M. (2021). Pedaqogika. Dərslik. Bakı: Mütərcim.

İBRAHİMOVA, A. P., MEHDİYEVA, G. Ə., & İBRAHİMOV, S. H. (2014). Həyat bilgisi. Ümumtəhsil məktəblərinin II siniflər üçün dərslik. Bakı: Aspoliqraf.

KƏRİMOVA, B. Ə., & MEHDİYEVA, G. Ə. (2013). Həyat bilgisi. Ümumtəhsil məktəblərinin 1-ci sinifi üçün dərslik. Bakı: Aspoliqraf.

MEHDİYEVA, G. Ə., & BAYRAMOVA, F. H. (2014). Həyat bilgisi. 3-cü sinif üçün dərslik. Bakı: Aspoliqraf nəşriyyatı.

MEHDİYEVA, G. Ə., & KƏRİMOVA, B. Ə. (2015). Həyat bilgisi. 4-cü sinif üçün dərslik. Bakı: Aspoliqraf nəşriyyatı.

MURADZADƏ, V. Ə. (2007). Tələbələrdə yaradıcı təxəyyülün inkişaf xüsusiyyətləri. Monoqrafiya. Bakı.

SADIQOV, F. B. (1994). Uşaqlarda bədii yaradıcılıq qabiliyyətlərin formalaşdırılması üzrə işin elmi pedaqoji əsasları. Bakı: ADPU-nun nəşri.

SADIQOV, F. B. (2012). Pedaqogika. Dərs vəsaiti. Bakı: Adiloğlu.

SADIQOV, F. B. (2012). Ümumi pedaqogika. Dərs vəsaiti. Bakı: Maarif.

SEYİDOV, S. İ., & HƏMİZƏYEV, M. Ə. (2007). Psixologiya. Bakı: Nurlan.